# “ATL TECH” MMC

**Maliyyə Hesabatları və Müstəqil Auditorun Rəyi**

01 yanvar 2023-cü il tarixdən
31 dekabr 2023-cü il tarixinədək olan dövr üzrə

"ATL TECH" Məhdud Məhsuliyyətli Cəmiyyətinin rəhbərliyinə


| | Səhifə |
|---|---|
| MÜNDƏRİCAT | 1 |
| 01 YANVAR 2023-Cü İL TARİXDƏN 31 DEKABR 2023-Cü İL TARİXİNƏDƏK OLAN DÖVR ÜZRƏ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNƏ DAİR BƏYANAT | 2 |
| MÜSTƏQİL AUDİTORUN RƏYİ | 3-4 |
| 31 DEKABR 2023-Cü İL TARİXİNƏ BALANS HESABATI | 5 |
| 01 YANVAR 2023-Cü İL TARİXDƏN 31 DEKABR 2023-Cü İL TARİXİNƏDƏK OLAN DÖVR ÜZRƏ MƏNFƏƏT VƏ ZƏRƏR HESABATI | 6 |
| PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT | 7 |
| KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT HESABAT | 8 |
| UÇOT SİYASƏTİ VƏ MALİYYƏ HESABATLARINA QEYDLƏR | 9-18 |

“ATL TECH” Məhdud Məhsuliyyətli Cəmiyyətinin rəhbərliyinə
**01 YANVAR 2023-cü İL TARİXDƏN 31 DEKABR 2023-cü İL TARİXİNƏDƏK OLAN DÖVR ÜZRƏ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNƏ DAİR BƏYANAT**

Bu bəyanat “ATL TECH” (bundan sonra “Cəmiyyət”) Maliyyə Hesabatları bağlı Cəmiyyət rəhbərliyinin və müstəqil auditorun göstərilən məsuliyyətlərini fərqləndirmək məqsədi ilə hazırlanmışdır. Rəhbərlik, 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyətini və 01 yanvar 2023-cü il tarixdən 31 dekabr 2023-cü il tarixinədək olan dövr üzrə maliyyə nəticələrini, pul vəsaitlərinin hərəkətini və kapitalda dəyişiklikləri əks etdirən Maliyyə Hesabatlarını Maliyyə Hesabatlarının Bəynəlxalq Standartlarına (“MHBS”) uyğun və düzgün hazırlanması üçün məsuliyyət daşıyır.

Maliyyə Hesabatlarının hazırlanması zamanı rəhbərlik aşağıdakılara cavabdehdir:

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və mütəmadi olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun təxminlərin və qərarların qəbul edilməsi;
- Hazırlanmış Maliyyə Hesabatlarının MHBS -a uyğunluğunun bəyan edilməsi və əgər bu standartlardan əhəmiyyətli kənarlaşmalar varsa, bu halların Maliyyə hesabatlarında açıqlanması və izah edilməsi;
- Əgər yaxın gələcəkdə Cəmiyyət işini normal şərtlər altında davam etdirəcəksə, hesabat tarixə Maliyyə Hesabatlarının davamlılıq prinsipi əsasında hazırlaması.

Rəhbərlik, həmçinin aşağıdakılara görə məsuldur:

- Cəmiyyət daxilində səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi;
- Cəmiyyətin Maliyyə Hesabatlarının MHBS -a uyğun olaraq düzgün hazırlanması və Cəmiyyətin maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat sisteminin təşkil edilməsi;
- Mümkün imkanlardan istifadə edərək Cəmiyyətin aktivlərinin qorunmasının təşkil olunması;
- Saxtakarlıq, yanlışlıq və digər qanunauyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması.

01 yanvar 2023-cü il tarixdən 31 dekabr 2023-cü il tarixinədək olan dövr üzrə Maliyyə Hesabatları 16 Aprel 2024-cü il tarixdə Cəmiyyətin rəhbərliyi tərəfindən təsdiq edilmişdir.

**Rəhbərlik adından:**

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti ATL TECH Limited Liability Company Azerbaijan Republic

**Direktor Anar Əliyev**
16 Aprel 2024-cü il
Bakı, Azərbaycan Respublikası

**RƏY**

No.:

Biz, “ATL TECH” (bundan sonra “Cəmiyyət”) 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə başa çatmış il üzrə mənfəət və ya zərər və digər məcmu gəlirlər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə mühüm mühasibat uçotu siyasətlərinin xülasəsi və digər izahlı qeydlərdən ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

Fikrimizcə, maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2023-cü il tarixinə olan maliyyə vəziyyətini və onun həmin tarixdə başa çatmış il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (“MHBS”) uyğun olmaqla bütün əhəmiyyətli hallarda düzgün əks etdirir.

**Rəy üçün Əsaslar**

Biz auditi Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (“MHBS”) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın “Maliyyə Hesabatlarının Auditi üçün Auditorun Məsuliyyəti” bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Milli Etika Standartları Şurasının “Etika məcəlləsinin” (MMESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də MMESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

***Maliyyə Hesabatları üzrə Rəhbərliyin və İdarəetmə Səlahiyyətləri Verilmiş Şəxslərin Məsuliyyəti***

Rəhbərlik bu maliyyə hesabatlarının MHBS-ın tələblərinə uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə görə və maliyyə hesabatlarının hazırlanması ilə əlaqədar, saxtakarlıq və ya xətalardan qaynaqlanan əhəmiyyətli təhriflərin qarşısının alınması məqsədi ilə zəruri hesab etdiyi daxili nəzarət sisteminin təşkil edilməsinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativin olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

Audit komitəsi Cəmiyyətin maliyyə hesabatlarının hazırlanma prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

***Maliyyə Hesabatlarının Auditinə görə Auditorun Məsuliyyəti***

Bizim məqsədimiz tərtib edilmiş maliyyə hesabatlarında bir tam kimi, saxtakarlıq və ya xətalar nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlik də əhəmiyyətli təhriflərin mövcud olduğu hallarda, Beynəlxalq Audit Standartlarına uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir. Təhriflər saxtakarlıq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə edilmiş maliyyə hesabatları

102A J.Mammadguluzadeh Str.,
AZ1022, Baku, Azerbaijan
Tel: (+994 12) 310 24 20/21/40
Mob: (+994 55) 236 86 46
office@tidconsulting.com
www.tidconsulting.com

əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

Beynəlxalq Audit Standartlarının tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında saxtakarlıq və ya xətalar nəticəsində əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Saxtakarlıq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski xətalar nəticəsindəkindən daha yüksəkdir, çünki saxtakarlıq əlbir hərəkətlər, dələduzluq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;
- Cəmiyyətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük;
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk;
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə ediməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz idarəetmə səlahiyyəti verilmiş şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

Auditor Reyhan Paşayeva

AZƏRBAYCAN RESPUBLİKASI • TID KONSALTİNQ QSC • TID CONSULTING CJSC • AZERBAIJAN REPUBLIC

16 Aprel 2024-cü il

Bakı, Azərbaycan Respublikası

**“ATL TECH” Məhdud Məhsuliyyətli Cəmiyyətinin rəhbərliyinə**

## 31 DEKABR 2023-cü İL TARİXİNƏ BALANS HESABATI
***(Azərbaycan Manatı ilə)***

| | Qeydlər | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| **Uzunmüddətli aktivlər:** | | | |
| Əmlak, tikili və avadanlıqlar | 13 | 114,175 | 154,077 |
| Qeyri-maddi aktivlər | 14 | 24,363 | 5,366 |
| Maliyyə aktivləri | | 223,270 | 223,270 |
| İnvestisiya mülkiyyəti | | | |
| Kapital qoyuluşu | | 7,500 | 7,500 |
| Təxirə salınmış vergi aktivi | | | |
| **Cəmi uzunmüddətli aktivlər** | | **369,308** | **390,213** |
| **Qısamüddətli aktivlər:** | | | |
| Mal-material ehtiyatları | | 564,138 | 592,268 |
| Debitor borcları və digər alınacaq vəsaitlər | 15 | 240,593 | 131,263 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 16 | 197,373 | 19,080 |
| Verilmiş avaslar | 17 | 192,922 | 0.00 |
| Gələcək dövrün xərcləri | 17 | 227,560 | |
| Digər qısamüddətli aktivlər | 17 | 24,656 | 40,764 |
| **Cəmi cari aktivlər** | | **1,447,242** | **783,375** |
| **CƏMİ AKTİVLƏR** | | **1,816,550** | **1,173,588** |
| **ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | | |
| ÖHDƏLİKLƏR: | | | |
| **Uzunmüddətli öhdəliklər:** | | | |
| Təxirə salınmış gəlir | | | |
| Bank kreditləri | 22 | 291,759 | 295,000 |
| İcarə öhdəlikləri | | | |
| Təxirə salınmış vergi öhdəliyi | | | |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **291,759** | **295,000** |
| **Cari öhdəliklər:** | | | |
| Təxirə salınmış gəlir | | | |
| İcarə öhdəlikləri | | | |
| Vergi və sair məcburi ödənişlər | 19 | 114,385 | 66,679 |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 20 | 71,547 | 67,811 |
| Alınmış avans | 21 | 792,255 | 568,952 |
| Təsisçi və ya səhmdarlarla hesablaşmalar | 21 | 354,282 | 281,323 |
| Digər cari öhdəliklər | | | |
| **Cəmi cari öhdəliklər** | | **1,332,469** | **984,765** |
| **Cəmi öhdəliklər** | | **1,624,228** | **1,279,765** |
| KAPİTAL: | | | |
| Nizamnamə kapitalı | 18 | 100 | 100 |
| Digər kapital | | | |
| Bölüşdürülməmiş mənfəət | | 192,222 | **(106,277)** |
| Qeyri-nəzarət payı | | | |
| **Cəmi kapital** | | **192,322** | **(106,177)** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **1,816,550** | **1,173,588** |

**Rəhbərlik adından:**

**Direktor Anar Əliyev**

16 Aprel 2024-cü il

Bakı, Azərbaycan Respublikası

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti ATL TECH Limited Liability Company Azerbaijan Republic

**“ATL TECH” Məhdud Məhsuliyyətli Cəmiyyətinin rəhbərliyinə**
**01 YANVAR 2022-Cİ İL TARİXDƏN 31 DEKABR 2022-Cİ İL TARİXİNƏDƏK OLAN DÖVR ÜZRƏ MƏNFƏƏT VƏ ZƏRƏR HESABATI**

| | Qeydlər | 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə | 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| Gəlir | 4 | 1,148,353 | 2,599,268 |
| Satışın maya dəyəri | 5 | (637,565) | (2,388,273) |
| **Ümumi mənfəət** | | **510,788** | **210,995** |
| **Sair əməliyyat gəlirləri** | 11 | 35,488 | 53,445 |
| **Məzənnə fərqi** | 11 | 99 | 646 |
| Ümumi və inzibati xərclər | 7 | (78,453) | (292,460) |
| Kommersiya xərcləri | 6 | (19,312) | (19,145) |
| Mal-material ehtiyatları üzrə yaradılmış ehtiyat | | | |
| Gəlirdən çıxılan vergilər | 10 | (1,341) | (1,878) |
| **Əməliyyat mənfəəti** | | **447,269** | **(48,397)** |
| Maliyyə xərcləri | 9 | (33,763) | 0.00 |
| Sair əməliyyat xərcləri, xalis | 8 | (25,018) | (233,340) |
| **Mənfəət vergisi xərcindən əvvəlki mənfəət** | | **388,488** | **(281,737)** |
| **Vergidən azad olan (kompensasiya edilən keçmiş illərin zərəri)** | | (281,737) | |
| Mənfəət vergisi xərci | 12 | (21,350) | 0.00 |
| **İl üzrə xalis mənfəət** | | **367,138** | **(281,737)** |
| **İL ÜZRƏ CƏMİ MƏCMU GƏLİR** | | **367,138** | **(281,737)** |

**Rəhbərlik adından:**

**Direktor Anar Əliyev**
16 Aprel 2024-cü il
Bakı, Azərbaycan Respublikası

**"ATL TECH" Məhdud Məhsuliyyətli Cəmiyyətinin rəhbərliyinə**

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT

| | Qeydlər | 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə | 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTLƏRİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ** | | | |
| Mənfəət vergisi xərcindən əvvəlki mənfəət | | 388,488 | (281,737) |
| Köhnəlmə və amortizasiya xərcləri | | 29,725 | 39,926 |
| Əmlak, tikili və avadanlıqların satışı üzrə gəlir/zərər | | | |
| **Dövriyyə kapitalında dəyişikliklərdən əvvəlki əməliyyat fəaliyyətləri üzrə daxil olan pul vəsaitləri** | | **418,213** | **(241,811)** |
| Əməliyyat aktivləri və öhdəlikləri üzrə dəyişikliklər: | | | |
| Mal-material ehtiyatlarında dəyişiklik | | 28,130 | 276,232 |
| Debitor borcları və digər alınacaq vəsaitlərdə dəyişiklik | | (109,329) | 232,964 |
| Verilmiş avanslar | | (192,922) | 262,126 |
| Gələcək dövrün xərcləri | | (227,560) | 0.00 |
| Bank kredit üzrə hesablaşmalar | | (3,241) | 0.00 |
| Ödəniləcək vergilər və digər məcburi ödənişlər | | 47,705 | (167,703) |
| Alınmış avanslar | | 223,303 | (628,506) |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlərdə dəyişiklik | | 3,736 | (187,825) |
| Digər öhdəliklər | | 16,108 | (26,515) |
| **Əməliyyat fəaliyyətlərindən daxil olan pul vəsaitləri** | | (214,070) | (239,227) |
| Ödənilmiş mənfəət vergisi | | (21,350) | 0.00 |
| **Əməliyyat fəaliyyətlərindən yaranan xalis pul vəsaitləri** | | **(235,420)** | **(239,227)** |
| **İNVESTİSİYA FƏALİYYƏTLƏRİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ** | | | |
| Əmlak, tikili və avadanlıqların və qeyri-maddi aktivlərin satın alınması | | (20,124) | (61,226) |
| Əmlak ,avadanlıqların və QMA satışı və silinməsindən daxilolmalar | | 11,304 | 127,554 |
| Maliyyə aktivləri | | | (38,700) |
| **İnvestisiya fəaliyyətlərində istifadə olunan xalis pul vəsaitləri** | | **(8,820)** | **27,628** |
| **MALİYYƏLƏŞDİRMƏ FƏALİYYƏTLƏRİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ** | | | |
| Ödənilmiş dividentlər | | | |
| Kapital qoyuluşları | | 0.00 | (7,500) |
| Mənfəət (zərər) üzrə düzəlişlər | | | |
| Təsisçilərlə hesablaşmalar | | 72,959 | 269,854 |
| Mənfəətin digər istifadəsi | | (68,639) | (37,702) |
| **Maliyyələşdirmə fəaliyyətlərində (istifadə olunan)/yaranan xalis pul vəsaitləri** | | **4,320** | **224,652** |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİNDƏ XALİS (AZALMA)/ARTIM | | 178,293 | (228,758) |
| **PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ,** ***ilin əvvəlinə*** | | 19,080 | 247,838 |
| **PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ,** ***ilin sonuna*** | | 197,373 | 19,080 |

**Rəhbərlik adından:**

**Direktor Anar Əliyev**

16 Aprel 2024-cü il

Bakı, Azərbaycan Respublikası

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti ATL TECH Limited Liability Company Azerbaijan Republic

**“ATL TECH” Məhdud Məhsuliyyətli Cəmiyyətinin rəhbərliyinə**
**KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT**

| | Nizamnamə Kapitalı | Bölüşdürülməmiş mənfəət | Kapital ehtiyatları | Cəmi Kapital |
|---|---|---|---|---|
| **31 dekabr 2022-ci il tarixə qalıq** | **100** | **(106,277)** | | **(106,177)** |
| **Aktivlərin yenidən qiymətləndirilməsi** | | | | |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | | **367,138** | | **367,138** |
| **Mənfəətin digər istifadəsi** | | **(68,639)** | | **(68,639)** |
| **Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividendlər)** | | | | |
| **31 dekabr 2023-cü il tarixə qalıq** | **100** | **192,222** | | **192,322** |

**Rəhbərlik adından:**

**Direktor** **Anar Əliyev**

16 Aprel 2024-cü il
Bakı, Azərbaycan Respublikası

# UÇOT SİYASƏTİ VƏ MALİYYƏ HESABATLARINA QEYDLƏR

## 1. Cəmiyyət haqqında məlumat

"ATL TECH" Məhdud Məsuliyyətli Cəmiyyəti (sonradan cəmiyyət adlanacaq) 22 fevral 2013-cü ildə təsis (VÖEN: 2002575181) edilmişdir.
Cəmiyyət Azərbaycan Respublikasının qanunverciliyi ilə qadağan olmayan bütün fəaliyyət növləri ilə, o cümlədən xüsusi icazə alınmasını tələb edən müəyyən fəaliyyət növləri ilə yalnız müvafiq icazəni aldıqdan sonra məşğul ola bilər.
Cəmiyyətin nizamnaməsi ilə nəzərə alınmış məqsədlərinin yerinə yetirilməsi üçün cəmiyyət aşağıdakı fəaliyyət növlərini həyata keçirir:
-kompüterlərin, kompüter periferiya avadanlıqlarının və proqram təminatının topdan satışı;
- şəbəkələrə texniki xidmət göstərilməsi;
- layihə işləri;
- proqram təminatının işlənməsi;
-kompüterlərin, kompüter periferiya avadanlıqlarının və proqram təminatının topdan satışı

31 dekabr 2023-cü il tarixinə cəmiyyətin nizamnamə kapitalında təsisçilərin payı aşağıdakı kimi olmuşdur:

| Təsisçilər | Pay nisbəti | Məbləğ (AZN) |
|---|---|---|
| Şərifov Elçin Mərdan oğlu | 90% | 90.00 |
| Hacıyev Vurğun Şahbəndər oğlu | 10% | 10,00 |
| Cəmi | 100% | 100,00 |

Qanuni təmsilçi: Əliyev Anar İsmayıl oğlu
Cəmiyyətin hüquqi ünvanı: AZ1018, Bakı şəhəri, Xətai rayonu Gəncə pr, ev 77, mənzil 69

## 2. Əməliyyat mühiti

Azərbaycan Respublikasında həyata keçirilən iqtisadi islahatlar maliyyə sektorunun da genişlənməsi və inkşafına müsbət təsir göstərir. Müvafiq olaraq yerli qanunvericilik aktları da müxtəlif əlavə və dəyişikliklərə məruz qalır.

## 3. Təqdimatın əsası

Cəmiyyət mühasibat yazılışlarını Azərbaycan mühasibat uçotu qaydalari əsasında aparır. Bu maliyyə hesabatları Azarbaycan Respublikasının mühasibat qaydaları əsasında hazırlanmış və zəruri düzəlişlər edilmişdir.
Maliyyə hesabatlarının hazırlanmasında hesabat tarixinə aktiv və öhdəliklərin qeyd olunmuş məbləğlərinə və hesabat dövründə gəlir və xərclərin qeydə alınmış məbləğlərinə təsir edə biləcək hesablamalardan istifadə olunur.

### Əməliyyat valyutası

Təqdim olunan maliyyə hesabatlarında əməliyyat valyutası Azərbaycan manatıdır (AZN).

### Uçot siyasətləri

Aşağıdakı uçot siyasətləri əsaslı surətdə əhəmiyyətli olan maddələrə müvafiq olaraq müəssisənin maliyyə hesabatlarında tətbiq edilmişdir.

### Uçot metodu

Maliyyə hesabatları ilkin dəyər konsepsiyası əsasında hazırlanmışdır.

**Əsas əməliyyat gəliri**

Əsas əməliyyat gəliri hesablama metodu əsasında tanınır və tanınma alıcı ilə müqavilənin bağlanmasından sonra işlərin (xidmətlərin) təhvil verildiyi andan başlanır.

**Digər gəlirlər**

Digər gəlirlər aidiyyatı əməliyyatlar başa çatdıqda gəlirin kreditinə yazılır. Əməliyyat xərcləri və digər xərclər adətən mallar alındıqda və xidmətlər yerinə yetirildikdə hesablama metodu ilə qeyds olunur.

**Pul vəsaitləri və ekvivalentləri**

Pul vəsaitlər – nağd pul vəsaitləri, bank hesablarında saxlanılan və tələblər üzrə verilən pul vəsaitləridir.
Pul vəsaitlərinin ekvivalentləri – ödəmə müddəti üç ayadək olan, pul vəsaitlərinin əvvəlcədən məlum olan məbləğinə asan çevrilə bilən va dəyərin dəyişməsi kimi cüzi riskə məruz qalan qısamüddətli qoyuluşlardir. Pul vəsaitlərinin ekvivalentlərinə hesabat ilinin sonunda xalis pul vəsaitləri və onların ekvivalentlərinə əlavə edilən hər-hansı bank overdraftı da daxildir.

**Ödəniş tarixinədək saxlanılan investisiyalar**

Ödəniş tarixinədək saxlanılan investisiyalar müəyyənləşdirilən və sabit ödənişli borc qiymətli kağızlardır. Bu cür qiymətli kağızlar ilk olaraq ədalətli dəyər üstəgəl birbaşa əməliyyat xərcləri məbləğində tanınır.

**Alınacaq vəsaitlər və qabaqcadan ödəmələr**

Alınacaq vəsaitlər göstərilmiş xidmətlər nəticəsində yaranan debitor borclardan və digər vəsaitlərdən ibarətdir. Debitor və kreditor borcları bunun üçün hüquqi əsas olduqda əvəzləşdirilir. Alınacaq vəsaitlər müqavilə bağlandıqdan sonra xidmətlər göstərildiyi tarixdə qeydə alınır və hesabatlarda əks olunur. Qabaqcadan ödəmələr ödəmə tarixində qeydə alınır və xidmətlər yerinə yetirildikdə mənfəət və zərər hesabatına daxil edilir.

**Torpaq, tikili, avadanlıq və amortizasiya**

Aktiv kimi tanına bilən torpaq, tikili və avadanlıq obyekti əldə olunan zaman ilkin dəyəri əsasında tanınır. "İlkin dəyər" ödənilmiş pul və ya pul ekvivalentlərinin məbləğinə və ya ödənilmiş hər hansı digər əvəzləşmənin ədalətli dəyərinə bərabərdir. Əsas vəsaitlər yığılmış köhnəlmə və hər hansı qiymətdən düşmə zərəri çıxılmaqla ilkin dəyərlə tanınır (ilkin dəyər modeli). Torpaq istisna olmaqla əsas vəsaitlərin köhnəlməsi "azlan qalıq metodu" əsasında aktivlərin illik köhnəlmə dərəcələri istifadə olunmaqla hesablanır:

| | |
|---|---|
| Binalar, tikililər və qurğular | 7%-ə qədər |
| Maşın və avadanlıqlar | 20%-ə qədər |
| Hesablama texnikası | 25%-ə qədər |
| Nəqliyyat vasitələri | 25%-ə qədər |
| Digər aktivlər | 20%-ə qədər |

Hər bir maliyyə ilinin sonunda aktivlərin qiymətdən düşmə zərərini müəyyən etmək üçün ilkin dəyərə əsaslanan balans dəyəri ilə bərpa oluna bilən dəyəri müqayisə edilir. Əgər balans dəyəri bərpa oluna bilən dəyərindən əhəmiyyətli dərəcədə artıq olarsa, bu iki dəyər arasındakı fərq mənfəət və zərər haqqında hesabatda xərc kimi göstərilməklə balans dəyəri bərpa oluna bilən dəyərinə qədər silinir.

**Qeyri-maddi aktivlər və amortizasiya**

Qeyri-maddi aktiv aşağıdakı meyarlara cavab verdikdə tanınır:

- Bu aktiv fiziki formaya malik olmayan qeyri-monetar aktiv olmalıdır;
- Ayrıca tanına bilməlidir;

- Müəssisə aktiv üzərində nəzarət imkanına malik olmalıdır;
- Gələcəkdə iqtisadi səmərələr yaratmalıdır;
- Gələcəkdə iqtisadi səmərələrin müəssisəyə daxil olacağı ehtimalı olmalıdır;
- Aktivin dəyəri etibarlı qiymətləndirilməlidir.

Bu meyarlardan hər-hansı yerinə yetirilmədikdə xərclər qeyri-maddi aktiv kimi deyil, onların yarandığı dövrün xərcləri kimi tanınır. Qeyri-maddi aktivlərin tanınması onların ilkin dəyəri əsasında aparılır. Cəmiyyət ilkin tanınmadan sonra qeyri-maddi aktivi amortizasiya çıxılmaqla ilkin dəyəri ilə uçota alır. Bundan əlavə, balans dəyəri təyin edilmiş ədalətli dəyərlə müqayisə edilməli və ədalətli dəyər balans dəyərindən əhəmiyyətli dərəcədə aşağı olduqda, balans dəyərindən qiymətdən düşmə zərəri çıxılmalıdır. Aktiv qiymətdən düşmüş olduqda, ona amortizasiyanın standard qaydalarının tətbiq edilməsi davam etdirilməlidir.

**Ehtiyatlar**

Ehtiyatlar ilkin dəyər və ehtimal edilan satış dəyərindən daha az olan dəyərlə qiymətləndirilirlər.

**Vergilər**

Vergilərin məbləği balans tarixinə qüvvədə olan vergi qanunvericiliyinə uyğun olaraq hesablanır.

**Mənfəət vergisi**

Mənfəət vergisi xərcləri cari vergilərdən və təxirə salınmış vergilər üzrə xərclərdən ibarətdir.
Cari mənfəət vergisi – balans hesabatı tarixinə qüvvədə olan vergi dərəcələrini istifadə etməklə dövr üzrə gözlənilən vergiyə cəlb olunan mənfəət əsasında hesablanır. Hesabatdakı bəzi gəlir və xərclərin digər dövrlərdə vergi bazasına aid ediləcəyinə və bəzi maddələrin heç bir vaxt vergi bazasını hesablayarkən istifadə edilməyəcəyinə görə vergi mənfəəti hesabatdakı mənfəətdən fərqlənir.
Təxirə salınmış mənfəət vergisi – cari və keçmiş dövrlərin maliyyə hesabatlarında tanınan əməliyyat və hadisələrin qiymətləndirilmiş gələcək vergi nəticələridir. Təxirə salınmış vergi elə mühasibat qeydidir ki, müvəqqəti fərqlər üzrə nəticələnə biləcək uçot mənfəəti və vergi mənfəəti arasında mövcud olan əlaqə ilə bağlı istənilən təhrifin aradan qaldırılmasını təsvir edir.
Təxirə salınmış vergi öhdəlikləri - vergi tutulan müvəqqəti fərqlər ilə əlaqədar gələcəkdə ödənilməli olan mənfəət vergisinin məbləğidir. Vergi tutulan müvəqqəti fərqlərin mövcud olduğu yerlərdə vergi xərci nəzərdə tutulan gələcək vergi xərci vasitəsilə artırılır və öhdəlik kimi mühasibat balansinda taninir.
Təxirə salınmış vergi aktivləri - çıxılan müvəqqəti fərqlərin nəticəsi kimi yaranan və gələcək dövrlərdə əvəzi alınmalı olan mənfəət vergisi məbləğləridir.
Təxirə salınmış vergi aktivləri və öhdəliklərinin qiymətləndirilməsi - aktivin realizasiya olunacağı və ya öhdəliyin yerinə yetiriləcəyi dövrə tətbiq edilməsi gözlənilən balans hesabat tarixinə qüvvədə olan vergi dərəcələri əsasında qiymətləndirilməlidir. Lakin balans hesabati tarixinə gələcək illərdə vergi dərəcəsini dəyişəcək qanunvericilik aktları qəbul edilərsə, bu zaman gələcəkdə qüvvədə olacaq dərəcə istifadə olunmalıdır. Birbaşa kapitala təsir edən əmliyyatlar istisna olmaqla, təxirə salınmış vergi xərci və ya gəliri birbaşa mənfəət və ya zərər hesabında əks etdirilir. Universitetin kapitalına təsir edən əməliyyatlarla bağlı təxirə salınmış vergilər balans üzrə kapitalında öz əksini tapır.

**İnvestisiyalar**

Digər müəssisələrin qiymətli kağızlarına və aktivlərinə qısamüddətli və uzunmüddətli investisiyalar ilkin dəyər və ehtimal edilən satış dəyərindən daha az olan dəyərlə tanınır.

**Ödəniş tarixinədək saxlanılan investisiyalar**

Adətən aşağıdakı beş meyara uyğun olduğu zaman investisiyalar ödəniş müddətinə qədər saxlanılan investisiyalar kimi təsnifləşdirilir:
- qeyri-törəmə aktivlərdi;
- sabit və ya müəyyənləşdirilə bilən ödənişlərdir;
- sabit ödəmə müddətinə malik olmalıdırlar;

- müəssisənin aktivləri ödəniş müddətinə qədər saxlamaq üzrə kəskin niyyəti vardır;
- müəssisənin aktivləri ödəniş müddətinə qədər saxlamaq üçün maliyyə imkanına malik olamlıdır.

**Maliyyə alətləri və onların ədalətli dəyəri**

Maliyyə alətləri bir müəssisənin maliyyə aktivlərinin və digər müəssisənin maliyyə öhdəliyinin yaranmasına səbəb olan hər hansı sənəd və ya müqavilədir. Bu ikili aspekt hər zaman mövcud olmalıdır . Əgər bu aspektlərdən hər hansı biri mövcud deyilsə, onda müqavilə maliyyə aləti deyildir.
Ədalətli dəyər, məcburi satış və ya ləğvetmə halları istisna olmaqla, maraqli tərəflər arasında cari əməliyyat zamanı maliyyə alətinin mübadilə edilə bildiyi məbləği əks etdirir və sərbəst katirovkasi olan bazar qiymətləri ilə təsdiqlənir.
Maliyyə alətlərinin təxmin edilən ədalətli dəyəri cəmiyyət tərəfindən mövcud bazar məlumatlarından va müvafiq qiymətləndirmə metodlarından istifadə etməklə müəyyən edilmişdir. Lakin, təxmin edilən ədalətli dəyərin müəyyən edilməsi üçün bazar məlumatlarını şərh edərkən peşəkar mülahizələr irəli sürmək tələb edilir. Maliyyə alətlərinin ədalətli dəyərini müəyyən edərkən rəhbərlik bütün mövcud bazar məlumatlarından istifadə edir.

**Maliyyə aktivləri**

Pul vəsaiti, digər müəssisədə kapital aləti, digər müəssisədən pul vəsaiti almaq üzrə müqavilə hüququ, müəssisənin əlverişli şərtlər əsasında öz maliyyə aktivlərini və öhdəliklərini mübadilə etməsi üzrə müqavilə hüququ, müəssisənin ödənişi öz payların potensial olaraq dəyişən sayı formasında qəbul etməsini tələb edən müqavilə hüququ, müəssisənin öz payların sabit sayı üzrə hesablaşması ilə əlaqədar törəmə müqavilə maliyyə aktivləri hesab olunur.

**Maliyyə öhdəlikləri**

Digər müəssisəyə pul vəsaitlərinin ödənilməsi ilə əlaqədar müqavilə öhdəliyi(kreditor borclar, kreditlər) müəssisə üçün əlverişli ola bilməyən maliyyə aktivləri və ya maliyyə öhdəliklərinin mübadiləsi ilə əlaqədar olan müqavilə öhdəliyi, müəssisənin ödənişi öz səhmlərinin potensial olaraq dəyişən sayı formasında həyata keçirməsini tələb edən müqavilə öhdəliyi, müəssisənin öz payların sabit sayı üzrə hesablaşması ilə əlaqədar törəmə müqavilə öhdəliyi maliyyə öhdəlikləri hesab olunur.

**Maliyyə aktivi və ya maliyyə öhdəliyinin amortizasiya edilmiş dəyəri və effektiv faiz metodu**

Bu iki anlayış maliyyə aktivi və ya maliyyə öhdəliyinin ilkin tanınma dəyəri üzrə tələb olunan hesablamalara aid edilir. Amortizasiya edilmiş dəyər sadəcə olaraq müddət üzrə pul vəsaitlərinin hərəkətini deyil, aktiv (və ya öhdəlik) müddətində qazanılmış real maliyyə gəlirlərini nəzərdə tutur. Effektiv faiz dərəcəsi diskontlaşdırma əmsalı kimi istifadə olunaraq gələcək gəlir axını (investisiyadan gələn) xalis balans dəyərinə endirilir. Həmin faiz dərəcəsi sonradan aktivin əldə edildiyi hər bir müddət üzrə əldə olunan maliyyə gəlirlərini müəyyənləşdirdikdən sonra, aktivin balans dəyəri hesablanır.

**Qiymətləndirilmiş öhdəliklər**

Gələcəkdə yaranacaq öhdəlik ehtimal edildikdə, bu ehtimal yarandığı andan bəri qeyd edilmiş öhdəlik kimi tanınır.

**Xarici valyuta əməliyyatı**

Cəmiyyətin əməliyyat valyutası manatdır. Xarici valyutada olan monetar maddələr Cəmiyyətin balans hesabatının bağlandığı tarixə (31 dekabr) olan valyuta məzənnəsindən istifadə etməklə hesabat verdiyi valyutaya dəyişilir. Xarici valyutada olan maya dəyəri ilə qiymətləndirilən qeyri-monetar maddələr tanınmış maya dəyəri nəticəsində ilkin əməliyyatın aparıldığı zaman mövcud olan valyuta məzənnəsi istifadə olunmaqla çevrilir. Xarici valyutada olan ədalətli dəyər müəyyən edilən (və ya yenidən qiymətləndirilmə aparılan) günə olan valyuta məzənnəsi istifadə olunmaqla

çevrilir. Xarici valyuta ilə ifadə olunmuş monetar maddələr ilə əlaqədar yaranan məzənnə fərqləri mənfəət və zərər haqqında hesabat vasitəsi ilə mühasibat uçotuna daxil edilir. Qeyri-monetar maddələr ilə bağlı digər mənfəət və ya zərərin mənfəət və zərər haqqında hesabat vasitəsi ilə tanındığı hallarda yaranan məzənnə fərqləri də həmçinin bu hesabatlara daxil edilir. Mənfəət və zərərlər kapital vasitəsi ilə tanındığı hallarda müvafiq olaraq, məzənnə fərqləri də həmçinin kapital vasitəsi ilə tanınır.

Xarici valyuta balansında istifadə olunan əsas dərəcə Azərbaycan Respublikası Mərkəzi Bankının rəsmi məzənnələri əsasında aşağıda göstərilib:

| | **31.12.2023** | **31.12.2022** |
|---|---|---|
| AZN / 1 ABŞ dolları | 1,7000 | 1,7000 |
| AZN / 1 Avro | 1,8766 | 1,8114 |

**Əvəzləşdirmə**

Maliyyə aktivləri və öhdəlikləri yalnız o zaman əvəzləşdirilir ki, qarşılıqlı əvəzləşdirmənin həyata keçirilməsi üçün qanuni hüquq mövcud olmalı, iki alətin qarşılıqlı əvəzləşdirilməsi niyyəti və hər iki müqavilənin eyni zamanda reallaşdırılması niyyəti olsun.

## 4. Gəlirlərin təhlili

31 dekabr 2022-ci və 31 dekabr 2023-cü il tarixinə başa çatmış il üzrə cəmiyyətin gəlirləri aşağıdakı kimi olmuşdur:

| | **31.12.2023** | **31.12.2022** |
|---|---|---|
| **Əsas əməliyyat gəlirləri** | | |
| - Malların təqdim edilməsindən gəlir | 1,148,353 | 2,599,268 |
| **Cəmi** | **1,148,353** | **2,599,268** |

## Xərclərin təhlili

31 dekabr 2022-ci il tarixində başa çatmış illər üzrə cəmiyyətin satışının maya dəyəri, inzibati, kommersiya və sair əməliyyat xərcləri aşağıdakı kimi olmuşdur:

| | **31.12.2023** | **31.12.2022** |
|---|---|---|
| **5. Satışın maya dəyəri** | **(637,565)** | **(2,388,273)** |
| Əməyin ödənilməsi üzrə xərclər | (486,525) | (1,483,812) |
| Sosial sığorta və təminat üzrə xərclər | (87,027) | (269,215) |
| Kommunal xərcləri | 0.00 | (6,283) |
| Amortizasiya ayrılmaları | (32,883) | (70,605) |
| Təmir xərcləri | 0.00 | (1,323) |
| Mal | (31,130) | (557,035) |
| **6. Kommersiya xərcləri** | **(19,312)** | **(19,145)** |
| Reklam xərcləri | (4,000) | (3,488) |
| Yanacaq xərcləri | 0.00 | (7,300) |
| Ezamiyyə xərcləri | (15,312) | (8,357) |
| **7. İnzibati xərclər** | **(78,453)** | **(292,460)** |
| İcarə ödənişləri | (35,093) | (183,788) |
| Rabitə xərcləri | (25,718) | (68,769) |
| Bank xidmətləri üzrə xərclər | (16,406) | (34,224) |
| Sığorta üzrə xərclər | (1,236) | (5,679) |
| **8. Sair əməliyyat xərcləri** | **(25,018)** | **(233,340)** |
| Təqdim edilmiş əsas vəsaitlərin dəyəri | (8,146) | (76,990) |

| | | |
|---|---|---|
| Digər xərclər | (16,872) | (156,350) |
| **9. Maliyyə xərcləri** | **(33,763)** | -- |
| Kredit faizi | (33,763) | -- |
| **10. Gəlirdən çıxılan vergilər** | **(1,341)** | **(1,878)** |
| Torpaq vergisi | | -- |
| Əmlak vergisi | (1,341) | (1,878) |
| **11. Sair əməliyyat gəlirləri / (xərcləri), xalis** | **35,587** | **77,690** |
| Əmlak, tikili və avadanlıqların satışı üzrə gəlir/zərər | 14,367 | 65,924 |
| Xarici valyutaların manata nisbətən məzənnəsinin dəyişməsindən yaranan fərq | 99 | 646 |
| Ümumi gəlirdən çıxılmalar | 0.00 | (23,600) |
| Digər gəlirlər | 21,121 | 11,120 |

**12. Mənfəət vergisi**

Cəmiyyət vergi hesabatlarını Azərbaycan Respublikasının yerli vergi qanunvericiliyinin tələbləri əsasında hazırlayır və bu tələblər maliyyə hesabatlarının tələblərindən fərqlənir. 2023-cü ilin maliyyə nəticələrinə görə Cəmiyyətin mənfəət vergisi 21,350 manat təşkil etmişdir.

**13. Əsas vəsaitlər**

| | **Binalar, tikililər və qurğular** | **Maşınlar və avadanlıqlar** | **Nəqliyyat vasitələri** | **Digər əsas vəsaitlər** | **Cəmi** |
|---|---|---|---|---|---|
| **01.01.2022-ci il tarixinə qalıq dəyəri** | | **191,635** | **26,466** | **29,809** | **247,910** |
| **01.01.2022-ci il tarixinə ilkin dəyər** | | **247,727** | **35,288** | **37,261** | **320,276** |
| **01.01.2022-ci il tarixinə yığılmış amortizasiya** | | **56,092** | **8,822** | **7,452** | **72,366** |
| 2022-ci ildə alınmış | | **57,526** | **3,700** | | **61,226** |
| 2022-ci ildə satılmış/silinmiş | | 76,512 | 23,345 | 16,257 | **116,114** |
| 2022-ci ildə yığılmış amortizasiya | | 34,530 | 1,705 | 2,710 | **38,945** |
| **01.01.2023-cü il tarixinə qalıq dəyəri** | | **138,119** | **5,116** | **10,842** | **154,077** |
| **01.01.2023-cü il tarixinə ilkin dəyər** | | **305,253** | **38,988** | **37,261** | **381,502** |
| **01.01.2023-cü il tarixinə yığılmış amortizasiya** | | **167,116** | **33,872** | **26,419** | **227,425** |

| | | | | | |
|---|---|---|---|---|---|
| 2023-cü ildə alınmış | | **0** | **0** | **0** | **0** |
| 2023-cü ildə satılmış/silinmiş | | 7,058 | 4,246 | 0 | **11,304** |
| 2023-cü ildə yığılmış amortizasiya | | 26,212 | 218 | 2,168 | **28,598** |
| **01.01.2024-cü il tarixinə qalıq dəyəri** | | **104,849** | **652** | **8,674** | **114,175** |

Vergi Məcəlləsinin 114.8-ci maddəsinə əsasən, ilin sonuna əsas vəsaitin qalıq dəyəri 500 manatdan və ya ilkin dəyərinin 5 faizindən az olduqda, qalıq dəyərinin məbləği gəlirdən çıxılır. 3,158 manat əsas vəsaitlərinin xarab olunması ilə bağlı həmin əsas vəsaitlər silinmişdir və beləliklə, Vergi Məcəlləsinin 114.8-ci maddəsin tələbləri pozulmuşdur.

## 14. Qeyri-maddi aktivlər

| | |
|---|---|
| **01.01.2023-cü il tarixinə qalıq dəyəri** | **5,366** |
| **2023-cü ildə alınmış** | **20,124** |
| **2022-cü ildə silinmiş** | **(1,127)** |
| **31.12.2023-cü il tarixinə qalıq dəyəri** | **24,363** |

## 15. Qısamüddətli debitor borcları

| | **31.12.2023** | **31.12.2022** |
|---|---|---|
| Sifarişçilərin qısamüddətli debitor borcları | 240,593 | 131,263 |
| Büdcə ilə hesablaşmalar | -- | -- |
| Sair debitor borcu | -- | -- |
| **Cəmi** | **240,593** | **131,263** |

## 16. Pul vəsaitləri və onların ekvivalentləri

| | **31.12.2023** | **31.12.2022** |
|---|---|---|
| Kassa vəsaitləri | 0.00 | 153 |
| Banklardakı hesablaşma hesabları | | |

| | | |
|---|---|---|
| - Azərbaycan manat | 11,344 | 2 |
| - Xarici valyuta | 78,723 | 964 |
| ƏDV depozit hesabı | 107,306 | 17,961 |
| **Cəmi** | **197,373** | **19,080** |

## 17. Sair qısamüddətli aktivlər

| | 31.12.2023 | 31.12.2022 |
|---|---|---|
| Gələcək dövrün xərcləri | 227,560 | -- |
| Verilmiş avanslar | 192,801 | -- |
| təhtəl hesablar | 121 | -- |
| Əvəzləşdirilən ƏDV | 24,656 | 40,764 |
| **Cəmi** | **445,138** | **40,764** |

## 18. Nizamnamə kapitalı

Nizamnamə kapitalı ilkin dəyər ilə tanınır. Nizamnamə kapitalı pul vəsaiti, aktiv və ya başqa formada qoyula bilinər. Təsisçilərin payı vəsait şəklində deyil, aktiv və ya başqa formada kapitala əlavə edildikdə onların dəyəri əməliyyatın aparıldığı tarixə ədalətli dəyər ilə qeydə alınır. 31 dekabr 2023-cü il tarixinə Cəmiyyətin nizamnamə kapitalının miqdarı 100,00 manat təşkil etmişdir.

## 19. Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər

| | 31.12.2023 | 31.12.2022 |
|---|---|---|
| Vergilər üzrə öhdəliklər | 114,385 | (6,231) |
| Sosial ayırmalar üzrə hesablaşmalar | 0.00 | 72,910 |
| **Cəmi** | **114,385** | **66,679** |

## 20. Qısamüddətli kreditor borcları

| | 31.12.2023 | 31.12.2022 |
|---|---|---|
| İcarə üzrə öhdəliklər | -- | -- |
| Malsatan və podratçılara qısamüddətli kreditor borcları | 71,547 | 67,811 |
| Digər qısamüddətli kreditor borcları | -- | -- |
| **Cəmi** | **71,547** | **67,811** |

## 21. Sair qısamüddətli öhdəliklər

| | 31.12.2022 | 31.12.2023 |
|---|---|---|
| Alınmış avanslar | 792,255 | 568,952 |
| Təsisçi və ya səhmdarlarla hesablaşmalar | 354,282 | 281,323 |
| **Cəmi** | **1,146,537** | **850,275** |

## 22. Bank kreditləri

| | |
|---|---|
| 01.01.2023 tarixinə | 295,000 |
| 2023-cü il üzrə alınmış | 0.00 |
| 2023-cü il üzrə ödənilmiş | 3,241 |
| 31.12.2023-cü il tarixinə | 291,759 |

## 23. Risklərin idarə edilməsi

Cəmiyyət daxilində risklərin idarə edilməsi funksiyası maliyyə riskləri (kredit riski, bazar riski, coğrafi risklər, valyuta riski, likvidlik riski və faiz dərəcəsi riskləri), əməliyyat və hüquqi risklər ilə əlaqədar həyata keçirir. Maliyyə risklərinin idarə edilməsi funksiyasının əsas məqsədi risk limitlərinin müəyyən edilməsi və bu limitlərə riayət edilməsidir. Əməliyyat və hüquqi risklərin idarə edilməsində məqsəd, bu risklərin azaldılması üçün nəzərdə tutulan daxili qayda və prosedurlara müvafiq qaydada riayət edilməsini təmin etməkdən ibarətdir.

**Kredit riski**
Cəmiyyətin kredit riski konsentrasiya üçün potensial müzakirə mövzusu olan maliyyə aktivləri, pul və debitor borclarından ibarətdir.

**Bazar riski**
Cəmiyyət bazardakı ümumi və spesifik dəyişikliklərə məruz qalan faiz, valyuta və pay alətləri üzrə açıq mövqelər ilə əlaqədar bazar risklərinə məruz qalır. Bazarda daha əhəmiyyətli dəyişikliklərin baş verdiyi halda müəyyən edilmiş limitdən artıq zərərlərin yaranmasının qarşısı alınır. Qəbul edilmiş normalar ilə uzunmüddətli borcların bazar dəyəri onların daşınan dəyərləri ilə dəyişə bilər.

**Faiz dərəcəsi riski**
Cəmiyyətin bir çox borcları təyin olunmuş marağı ifadə edir. Bu borclarla əlaqəli maraq xərcləri sığortalanmamışdır. Rəhbərlik inanır ki, maraq normalarının daimi olmamasından irəli gələn bazar qiymətlərinə dəyişikliklər əhəmiyyətli xarakter daşımır.

**24. Hesabat tarixindən sonra baş vermiş hadisələr**
Hesabat tarixindən sonrakı dövr ərzində Cəmiyyətdə hər hansı əhəmiyyətli dəyişiklik baş verməmişdir.